

*Zakir Bağır*

# QARA EYNƏKLİ QADIN

## Proloq

Onu hamı qara eynəkli qadın kimi tanıyırdı. Bəlkə də bu onunla bağlı idi ki, ilin bütün fəsillərində o, gözlərinə qara eynək taxırdı. Bunun səbəbini ondan başqa heç kim bilmirdi.

O, artıq "Qara eynəkli qadın" adına öyrəşmişdi. Bu adla onun çağırılmasına sevinirdi. Kim bilir ona qoyulmuş adını da unutmuşdu.

Artıq qaranlıq düşmüşdü. Asimanın axtarışları öz bəhrəsini verməmişdi. Evlərinə gedəndə burada başqa admları görmüşdü. Evə təzə köçənlərdən ev sahiblərinin yerini soruşmuşdu. Onlar çiyinlərini çəkmiş;

-Vallah bilmirik - demişdilər. Bəlkə də bu rayondan köçüblər.

Asimana çox qəribə gəlirdi. Yaxşı ev - eşikli, meyvə ağaclarıyla həyatyanı torpaqlı bir mənzili niyə satıblar?

-Buna onları nə vadar edib?

Asiman şəhəri ələk - vələk etmişdi. Amma İlhamənin indi harada yaşadığını öyrənə bilməmişdi.

Artıq küçənin işıqları yanırdı. Asiman fikirli halda gedirdi.

-Ay qara eynəkli qadın.

Asimanı düşüncələrdən ayırdı. Ondan qabaqda iki oğlan gedirdi. Oğlanlar nazlana-nazlana irəlidə gedən qadına müraciət edirdilər.

"Qara eynəkli qadın?" - Bu necə addır?- Asiman düşündü.

Qabaqda gedən oğlanlardan birisi bildirdi:

-Ay qara eynəkli qadın, dayan. Biz iki nəfərik. Bizi yaxşı təmin etsən, sənə istədiyin qədər pul verərik.

Qara eynəkli qadın dayandı,üzünü oğlanlara tərəf tutdu.

-Yoxsa, buna şübhə edirsiniz? Pulu qabaqcadan verin.

Səs Asimana tanış gəldi. "Görəsən bu səsi harada eşitmişəm"? Bir müddət xatırlaya bilmədi.

Addımlarını yekəltdi. İndi qara eynək taxmış qadının sifətini aydın görürdü.

Özündən asılı olmayaraq bərkdən qışqırdı:

-İlhamə?

O, həddindən artıq qısa don geymişdi. Paltar o qədər qısa idi ki, qadının güllü tumanı aydın görünürdü. İri döşləri yaxası açıq dondan çölə çıxmışdı.

Qara eynəkli qadın çoxdan adını eşitmədiyi üçün diksindi. Onu öz adıyla çağıran adama diqqətlə baxdı:

-Asiman

Bayaqdan qara eynəkli qadınla danışan iki oğlan bu sözü eşidib aradan çıxdılar.

Bir müddət hər ikisi susdu. Sanki deməyə söz tapmırdılar. Nəhayət Asiman dilə gəldi:

-Evi niyə satmısınız?

Asiman bilirdi ki, İlhamənin 14-15 yaşı olanda atası vəfat edib. Anası saxlayıb onu.

-Bəs anan buna necə razılıq verib?

-Anam yoxdur...

Asiman heç nə başa düşmədi:

-Nə olub ona?

Qara eynəkli qadın laqeyd halda:

-Mən onu öldürmüşəm - dedi.

Asiman diksindi:

-Öz doğma ananı niyə öldürmüsən?

Qara eynəkli qadın susdu. O istəmirdi ki, Asiman hər şeylə maraqlansın. Amma Asiman bunu hiss etmirdi. Sualları yağış kimi yağdırırdı. İndi qara eynəkli qadın onun tez getməsini istəyirdi. Amma bunu dilinə gətirə bilmirdi.

-İndi harada yaşayırsan?

- ...

Daşdan səs çıxdı, qızdan yox.

-Sənə niyə qara eynəkli qadın deyirlər? Bu qara eynəyi niyə taxmısan?

Qadın laqeyd halda bildirdi:

-Bu mənim taleyimdir.

-Sənin taleyinə nə olub?

-...

-Sənin oğlanlarla danışığını eşitdim...

-...

Qadın çox arzu edirdi ki, Asiman daha ona sual verməsin.

Bu an xarici markalı bir maşın düz onların qarşısında dayandı.

-Qara eynəkli qadın hara gedirsiniz? Aparım sizi.

Sürücünün ona yox, qadına müraciət etməsi Asimana qəribə gəldi.

Qadın bu zəhlə tökən suallardan canı qurtardığı üçün sevinirdi. Maşına yaxınlaşdı.

-Bizi yox, məni apar dedi.

Cəld maşının qabaq qapısını açıb sürücünün yanında oturdu. O, maşının qabaq qapısının şüşəsini aşağı çəkdi. Başını pəncərədən çıxardıb Asimana tərəf baxdı:

-Unut İlhaməni. İndi artıq o yoxdur. Qara eynəkli qadın var.

Elə bil sürücü qadının bu sözlərinin deməsini gözləyirmiş. Tez maşınını işə saldı. Çox keçmədi ki, xarici markalı maşın gözdən itdi.

Asiman yerindəcə quruyub qalmışdı.

## I

Onların tanış olmasının qəribə tarixçəsi vardı. Asiman ondan iki yaş böyük bacısı ilə tələbə idilər. Bacısı Tibb, Asiman isə Bakı Dövlət Universitetində oxuyurdu. Ataları onlar üçün bir otaqlı ev kirayə etmişdi. Asiman ali məktəbə girməmişdən qabaq bacısı qrup qızları ilə bir otaqda kirayə qalırdı.

Övladları üçün kirayə ev tutmaq ata üçün çox baha başa gəlirdi. Amma nə etməli ?

İndi yataqxanalarda qaçqınlar yaşayırlar. Bu Qarabağ müharibəsi acı bağırsaq kimi uzanır. Ata əmin idi ki, müharibə bizim xeyrimizə qurtaracaq. Gec-tez o nankor ermənilər başa düşəcəklər ki, Qarabağ Azərbaycanın torpağıdır.

İndi tətil idi. Bacı və qardaş rayona qayıt-mışdılar.

Asiman tez-tez şəhərə çıxır, keçmiş sinif yoldaşları ilə, görüşməyə can atırdı. Sinif yoldaşlarından bir neçəsi ali məktəbə və texnikumlara daxil olmuşdular. Bəziləri də öz səviyyəsini bilib heç yerə sənəd verməmişdilər.

Bu gün Asiman tezdən yuxudan oyanmışdı. Adəti

**Povest**

üzrə həmişə yuxudan tez duran anası təəccübləndi:

-Oğul (ata-anası heç vaxt onu adı ilə çağırmırdılar)niyə belə tez durmusan? Dərs vaxtı deyil doyunca yatardın.

-Ana vərdiş etmişəm.

Anası bir söz demədi. Mizin üstünə nahar yeməyi üçün lazım olan şeyləri düzdü.

Əslində Asimanın tez durmasının səbəbi vardı. Siniflərində Yaşar adlı bir oğlan oxuyurdu. Siniflərindəki bütün uşaqlardan savadlı idi. Onu çox vaxt öz adıyla deyil "Kəllə" çağırırdılar. Səkkizinci sinifdə oxuyanda anası dünyasını dəyişdi. Heç bir il keçmədi atası evləndi. Bundan sonra Yaşarın və kiçik qardaşının qara günləri başlandı. Ögey anaları onlara gün verib, işıq vermədi. Ögey anası ərinə nə deyirdisə o da oğlanlarına deyil, arvadına inanırdı. Tez-tez uşaqlarını döyürdü. Ataları evdə olmayanda ögey anası onları ac da saxlayırdı. Qardaşlar evlərindən qaçaq düşmüşdülər. Gah qohum-qonşugildə, gah da küçələrdə qalırdılar.

Çox keçmədi, ataları vəfat etdi. Artıq ögey ananın əlinə fürsət düşmüşdü...

Asiman eşitmişdi ki, Yaşar dəmirçi sexində usta köməkçisi işləyir. Rayonda bir neçə dəmirçi sexi vardı. Hamısı da şəhərdən kənarda yerləşirdi.

Asiman sinif yoldaşlarından birisi ilə görüşüb, ünvanı dəqiq öyrənmək istəyirdi. O, Yaşargilə getmək istəmirdi. Bunun əhəmiyyəti də yox idi. Ögey anası evi öz adına keçirmişdi. Kim bilir indi qardaşlar harada yaşayırlar?

Asiman nahar edədən sonra evdən çıxdı. Sinif yoldaşlarından birisi kəndlərə gedən avtobus dayanacağının yanında yaşayırdı. Elə bazar da burada yerləşirdi.

Asiman tələsmirdi. İstəmiridi ki, səhər tezdən onları narahat etsin. O, kəndlərdən gələn avtobusları nəzərdən keçirməyə başladı. Maşınlardan düşənlərin çoxunun əlində yük vardı. Həyətlərindəki məhsulları bazarda satmağa gətirmişdilər.

Onun gözləri avtobustan düşən orta boylu bir qıza sataşdı. Çox sadə geyinmişdi. Hiss olunurdu ki, kasıb ailədəndir. Əlində cavan qızların gəzdirdiyi çantadan vardı. Gözəl idi. Adamların diqqətini özünə cəlb edirdi. Asiman diqqətlə qıza baxdı. Qız onun xoşuna gəlmişdi. Nədənsə onunla danışmaq fikrinə düşdü. Birdən-birə tanımadığı qıza nə deyəcəkdi?

Bu an bir oğlan arxadan qıza yaxınlaşdı. Oğlanın üzü çopur idi. Sifətində çapıq izləri vardı. Asiman hiss etdi ki, onun sifəti bıçaqla yaralanıb. Sağ qolunu tənziflə bağlamışdı. Bir neçə dişi düşmüşdü. Üzünü tük basmışdı.

Asiman düşündü:

-"Körpə uşaqlar onu görsələr ağlayacaqlar". Oğlanın eybəcər sifəti qalsın bir yana, geyimi də çox qəribə idi. Geydiyi şalvar və köynək ona çox- çox böyük qalırdı. Hiss olunurdu ki, hansısa kök kişi köhnə paltarlarını ona verib.

Oğlan qıza nə dedisə, qız -öz yolunla get- dedi.

Bu an avtobusdan yaşlı bir qadın düşdü. Onun əlində böyük bir zənbil vardı. O, bu eybəcər oğlanın qıza söz atdığını görüb hirsləndi;

-Meymuna oxşar, nə istəyirsən bu qızdan?

-Sənə nə var ay qarı?

Oğlanın sözləri Asimanı hövsələdən çıxartdı. O, hələ məktəbdə oxuyan zaman boksla məşğul olmuşdu. Dəfələrlə respublika çempionu adını qazanmışdı. Ali məktəbdə təhsil alanda karate ilə məşğul olurdu. Qara kəmər ustası idi. Asimanın sağ ayağı ilə oğlana nece təpik vurduğunu heç kim hiss etmədi. Oğlanın ağzı burnu qanamışdı. Asiman ikinci təpik vuranda oğlan yerə yıxıldı.

Yaşlı qadın da, qız da Asimana mehribançılıqla baxdılar.

Yaşlı qadın:

-Belələrinə belə cavab vermək lazımdır-dedi.

Asiman üzünü qıza tutdu:

-Ay qız nə əcəb səhər tezdən şəhərə gəlmisən?

-Anam üçün dərman almalıyam.

-Bəs atan, qardaşın yoxdur?

-Evin yeganə övladıyam. Atam çoxdan rəhmətə gedib.

-Allah rəhmət eləsin.

-Çox sağ olun.

-Resepti ver.

Qız əlini çantasına salıb həkimin yazdığı kağızları çıxartdı. Əvvəlcə yaxındakı aptekə girdilər. Burada bir dərmanı çıxmaqla, butun dərmanlar vardı.

Dərmanları aldılar.

Asiman əczaçı qızdan soruşdu:

-Bəs bu dərmanlan necə əldə etmək olar?

-Mərkəzi aptekə gedin.

Asiman qıza müraciət etdi:

-Gedək ora!

-Mən şəhəri yaxşı tanımıram.

-Mənimlə gedəcəksən.

Qız sevindi o Asimandan ayrılmaq istəmirdi.

-Heç adını da bilmirəm.

-İlhamə.

-Mənim adım da Asimandır. Tələbəyəm.

Bakı Dövlət Universitetində oxuyuram.

O, cibindən tələbə biletini çıxardıb qıza göstərdi.

İlhamə həsrətlə tələbə biletinə baxdı.

-Məndə tələbə olmaq istəyirdim. Amma qismət olmadı.

-Niyə?

-Rayonumuzdakı pedaqoji texnikumuna sənədlərimi vermişdim. Texnikumun direktoru bildirdi ki, filan qədər pul verməsən səni qəbul edə bilmərik. Bizdə o qədər pul hardadır?

Evdə iki nəfərik. Anam və mən. İşləyən təkcə odur. Onun maaşı yeməyimizə heç çatmır... Gözləri doldu.

Haçandan-haçana:

-Bir iş olsaydı işləyərdim.

Asiman fikirə getdi.

Mərkəzi aptekə çatdılar. Asiman resepti əczaçı qıza göstərdi:

- Əlbəttdə var. Amma bir qədər gözləməli olacaqsınız. Çünki, bu dərmanı hazırlamaq lazımdır.

...Dərman hazırdır?-Asiman soruşdu.

-Əlbəttə

-Qiyməti nə qədərdir?

Əczaçı qız qiyməti bildirdi. İlhamənin rəngi ağardı. Astaca Asimana bildirdi:

-Məndə bu qədər pul yoxdur. Bəlkə sonra alım?

Asiman əlini cibinə saldı.

-Bilmirəm sənə necə təşəkkür edim.

-Təşəkkür lazım deyil. Təki anan tez sağalsın.

Asiman nə isə fikirləşib İlhaməyə dedi:

-Bacımda tələbədir. Tibb Universitetində oxuyur. Bəlkə ona deyim, anana iynələri o vursun.

- Çox sağ ol. Bizim qonşuda tibb bacısı yaşayır. Anama iynələri pulsuz vurur.

Kəndə gedən avtobus dayanacağına gəldilər. İlhamənin kəndinə gedən maşın yola düşürdü. Asiman əl uzadıb maşını saxlatdı. İlhaməyə:

-Min- dedi.

Sonra cibindən pul çıxardıb sürücüyə verdi:

-Bu qızın yol haqqıdır.

## II

Asiman hüquq fakültəsində oxuyan bir oğlanla dostlaşmışdı. O da bildirmişdi ki, dayım sizin rayonunuzda məhkəmənin sədridir. Asimanın yadına hamının Kəllə adlandırdığı şinif yoldaşı Yaşar düşdü. Onun başına gələnləri dostuna danışdı. Söhbəti axıradək dinləyən dostu od götürdü.

-Necə yəni Yaşarın ata-anasının mülkünü ögey anası öz adına keçirib?

Evin halalca sahibi iki qardaşdırlar. Narahat olma, iki gündən sonra anamın ad günüdür.

Bilirsən də, anam üç qardaşın bir bacısıdır. Dayılarım da anamı təbrik etməyə gələcəklər. Mən hər şeyi hüquqşünas dayıma danışacağam. Sən də Yaşarı və kiçik qardaşını götürüb gedərsən yanına. O, hər şeyi yoluna qoyar. Dərəbəylik deyil ki...

... Asiman Yaşarla görüşdü. Söhbəti ona danışdı.

Yaşar bildirdi:

-Bir neçə yerə ərizə yazmışam, amma xeyri yoxdur.

- Kiçik qardaşını da götür, gedək məhkəmə sədrinin yanına.

... Onlar məhkəmə sədrinin yanına girəndə fasilə vaxtı idi. Katibə divarda asılmış saatı göstərdi:

-Sədrin qəbul günü deyil.

Sədrin otağından çıxan hündür boylu bir kişi onlara baxdı.

Katibə qız onu görən kimi dik ayağa qalxdı.

-Bunlar...

Asiman qabağa gəldi. Əvvəlcə salam verdi.

Sonra:

-Sizin bacı oğlunuzun dostuyam-dedi.

Məhkəmə sədri gülümsədi:

-Demək Asiman sənsən?-soruşdu və cavab gözləmədən:

-Bu da Yaşar və kiçik qardaşıdır?

-Bəli

Hündürboylu kişi hər üçü ilə mehribançılıqla görüşdü.

-Gəlin içəri.

Məhkəmə sədri öz yerində oturdu. Onlara da oturmağa yer göstərdi. Sonra mizin sağ tərəfindəki düyməni basdı. Katibə qız nazlana - nazlana içəri girdi.

-Hakim Cavadlını yanıma çağırın.

Çox çəkmədi ki, orta yaşlı bir kişi içəri girdi:

- Sizi eşidirəm, cənab sədr.

- Cavadlı siz də oturun.

Sədr Yaşara müraciət etdi.

-Danış, oğul.

Yaşar başına gələn hadisələri yazmışdı.

O, yazdığını sədrin qabağına qoydu və danışmağa başladı.

Sədr üzünü Cavadlıya tutdu:

-Bu işlə ciddi məşğul olun. Nəticə barədə mənə məruzə edin.

-Oldu.

Məhkəmə sədri ayağa qalxdı.

Bunu görən Cavadlı və Asimangil ayağa qalxdılar.

...Rayon məhkəməsinin akt zalında ağır məhkəmə gedirdi. Məhkəmə Yaşar və onun kiçik qardaşına məxsus olan evin ögey ananın adına necə keçməsi məsələsinə həsr olunmuşdur.

Məhkəmə sədrinin tapşırığı ilə Cavadlı Yaşargilin qonşularından yazılı izahat almışdır. Onlarda yazılı şəkildə bildirmişdilər ki, evi ögey ananın adma qanunsuz keçirdiblər. Ögey anası Yaşarın atası ilə qeyri-rəsmi yaşayıblar. Lazım olsa, məhkəməyə gəlib bunlan şifahi şəkildə deyə bilərlər. Rayonumuzdakı natarius kantorunun müdiri Yaşarın ögey anasının aşinasıdır. Evi də qanunsuz qadının adına o keçirib.

**(ardı var)**